**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№305/2** **14 noyabr 2018-ci il**

**Sərbəst auditorlar və auditor təşkilatları tərəfindən 2018-ci ilin I yarımilliyi üzrə təqdim edilmiş hesabatlara dair icmal-təhlil və tövsiyələr barədə**

Auditorlar Palatasının 2018–ci il üzrə iş planının 1.4-cü “Sərbəst auditorlar və auditor təşkilatları tərəfindən 2018-ci ilin I yarımilliyi üzrə təqdim edilmiş hesabatlara dair icmal-təhlil və tövsiyələrin hazırlanması” bəndinə uyğun olaraq Hesabatlılıq və təhlil şöbəsi (R.Cəfərli) tərəfindən hazırlanmış materialı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Sərbəst auditorlar və auditor təşkilatları tərəfindən 2018-ci ilin I yarımilliyi üzrə təqdim edilmiş hesabatlara dair icmal-təhlil və tövsiyələr” barədə məruzə nəzərə alınsın.

2. Auditin təşkili və kadr hazırlığı idarəsinə (S.Gülməmmədov, R.Cəfərli) tapşırılsın ki, hesabatları vaxtında təqdim etməyən auditor təşkilatları (“Ason Audit” MMC – direktor Vəkilov Orxan Səbuhi oğlu, “Smart Audit” MMC – direktor Məmmədov Emil Nizami oğlu, “İnter Audit” auditor təşkilatı – direktor Bağırov Əlimuxtar Balağa oğlu, “İnternational Audit” MMC – direktor Yolçuyev Şahin Mahir oğlu, “Nahid Audit” MMC – direktor Ələkbərov Elnur Əsəd oğlu, “Çinar Audit Konsaltinq” MMC – direktor Rəhimov Kamran Vəli oğlu, “Legal Audit” MMC – direktor Qulizadə Elçin İlham oğlu, “Trust Audit” MMC – direktor Şahmarov Ramin Gülağa oğlu, “Universal Audit Konsaltinq” MMC – direktor Abbasov Mikayıl Hikmət oğlu, “Tid Legal Solution” MMC – direktor Rzayeva Fidan Cabir qızı, “Davud Mamedov” MMAC – direktor Məmmədov Davud Zahid oğlu, “Audit Consulting 17” MMC – direktor Cəfərov Nazim Suxənvər oğlu, “Prime Audit and Consulting” MMC – direktor Ağayev Cəbrayıl Şamil oğlu) və sərbəst auditorlar (Əvəzov Kamil Şərail oğlu, Mikayılzadə Raqif Rami oğlu, Fətiyev Üzeyir Cəmil oğlu) barəsində Auditorlar Palatası Şurasının 2017-ci il 30 iyun tarixli 288/4 nömrəli qərarı ilə təsdiq edilmiş “Audit xidməti sahəsində araşdırma və intizam tədbirləri sistemi”nin 7-ci bəndinə müvafiq olaraq inzibati tənbeh tədbirləri tətbiq edilsin.

3. Auditin təşkili və kadr hazırlığı idarəsinə (S.Gülməmmədov, R.Cəfərli) tapşırılsın ki, auditdən yayınan məcburi audit subyektləri barəsində ətraflı informasiyanın əldə olunması, həmin subyektlərə Auditorlar Palatası və aidiyyatı qurumlar tərəfindən müvafiq bildirişlərin göndərilməsi üzrə tədbirlər intensivləşdirilsin.

4. Bu qərarın və icmalın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**